# Azərbaycan müstəqil və inkişafda olan güclü dövlət kimi uğurla irəli gedir

## DAXİLİ BƏDXAHLARIMIZIN NARDARAN HADİSƏLƏRİNƏ ÖZ MARAQLARINA UYĞUN ŞƏRHLƏRİ UĞURLARIMIZA KÖLGƏ SALMAQ İMKANINDA DEYİL

**Dövlətimizin başçısı İlham Əliyevin böyük inam və qətiyyətlə söylədiyi "Azərbaycan inkişaf yolu ilə gedəcək. Gələcəkdə bizim böyük uğurlarımız və qələbələrimiz olacaqdır" fikri təbii ki, ölkəmizin bugünkü reallıqlarına əsaslanır. Məhz bu uğurların əsasında təsdiqlənən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qarşıdakı illər üçün müəyyənləşdirilən hədəflərin məcmusu və icra mexanizmi kimi daim təhlil olunur.**



Konsepsiyanın başlıca strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla, Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmaqdır. Qarşıda duran məqsədlərə çatmaq üçün ölkənin bütün imkanlarından dolğun istifadə etmək, mövcud iqtisadi, sosial, siyasi resurslardan tam səmərə ilə yararlanmaq və ölkənin potensialının gücləndirilməsinə şərait yaratmaq vacib şərtdir. İstənilən iqtisadi artımın məqsədi sosial rifahın yüksəldilməsidir. Bu baxımdan, sosial sahələrin və insan kapitalının inkişafı Konsepsiyanın əsas prioritetlərindən biridir.

Bu hədəfləri şərtləndirən amillərdən bəhs edərkən, təbii ki, ilk olaraq, mövcud ictimai-siyasi sabitlik önə çəkilir. Cənab İlham Əliyev bildirir: "Bizim tutduğumuz yol düzgün yoldur. Azərbaycan müstəqillik, inkişaf yolu ilə gedir. Bir neçə il bundan əvvəl dünyanı bürümüş iqtisadi və maliyyə böhranı, eyni zamanda, bölgədə baş verən xoşagəlməz hadisələr, toqquşmalar Azərbaycanın uğurlu inkişafına təsir etməmişdir. Bunun başlıca səbəbi Azərbaycanda ictimai-siyasi vəziyyətin sabit olmasıdır, xalqla iqtidar arasındakı birlikdir və bizim bütün proqramlarımızın uğurlu icrasıdır. Azərbaycanın apardığı xarici və daxili siyasət xalq tərəfindən dəstəklənir və əminəm ki, bu il də görüləcək işlər nəticəsində Azərbaycan daha da güclənəcək."

Ulu öndər Heydər Əliyev bildirirdi ki, sabitlik olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll olunmasından söhbət gedə bilməz. 1993-cü ildən bəri ölkədə yaradılan sabitlik davamlı uğurları şərtləndirdi. Sabitlik normal biznes mühitinin yaradılması üçün əsas stimulverici amildir. Bu amilin önəmini düzgün dəyərləndirmək üçün müstəqilliyimizin ilk illərində ölkədə xaos və anarxiyanın hökm sürməsinin hansı uğursuzluqlara yol açdığını yada salmağa zərurət duyulur. Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərdə tərəddüdlərin mövcudluğu inkaredilməz idi. Xarici iş adamları ölkə iqtisadiyyatına qoyacaqları investisiyaların təhlükəsizliyinə əmin deyildilər. Lakin ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı uğurlu daxili siyasətə yol açdı ki, bunun da sayəsində yaradılan sabitlik və normal biznes mühiti Azərbaycana investisiya axınını sürətləndirdi.

Möhkəm təmələ əsaslanan siyasətin fonunda hər ilin əvvəlki ildən daha möhtəşəm uğurlarla yadda qalacağına əminlik ifadə edilir, yeni-yeni hədəflərdən bəhs olunur və onlara çatmaq üçün yollar müəyyənləşdirilərkən uğurlarımız yardımçı rolunu oynayır. İqtisadi məsələlərə və 2016-cı ilin dövlət büdcəsinin hazırlığı işlərinə həsr edilmiş müşavirədə dövlətimizin başçısı İlham Əliyev bu fikri xüsusi qeyd etmişdir ki, çalışmalıyıq 2016-cı ildə də iqtisadi inkişafı təmin edək. Cari ilin 9 ayının yekunları əsas verir ki, ili yüksək nəticələrlə başa vuraq. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, dünya miqyasında buna bənzər yüksək nəticələr görmək çox çətindir: "Yenə də nəyə görə? İlk növbədə, bizim güclü siyasi iradəmiz var. Biz öz siyasətimizi ancaq Azərbaycan xalqının maraqları üzərində qurmuşuq. İkincisi, düşünülmüş iqtisadi siyasət və uzun illər aparılan islahatlardır ki, bu islahatlar bu gün beynəlxalq maliyyə qurumları tərəfindən də yüksək dəyərləndirilir."

Dövlətimizin başçısı İlham Əliyev daim çıxışlarında bu reallığı da diqqətə çatdırır: "Əgər biz vaxtilə neft kapitalını insan kapitalına, infrastruktur layihələrinə yönəltməsəydik, bu gün qeyri-neft sektorumuz bu qədər arta bilməzdi. Bəlkə də tənəzzülə uğrayardı və onda biz ancaq neft amilindən asılı ola bilərdik. Gələcək illərdə ayrılan vəsait və aparılan islahatlar qeyri-neft sektorunun daha da böyük çəkiyə malik olmasına gətirib çıxaracaqdır."

Cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı gündən iqtisadi artımın neft-qaz sektorundan asılılığının minimuma endirilməsini qarşıya mühüm vəzifə kimi qoydu. Regionların malik olduğu potensialdan səmərəli istifadə etmək üçün təsdiqlədiyi Dövlət Proqramları ilə qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olmağa yol açdı. Bu fikir də hər zaman önə çəkilir ki, inkişaf etmiş ölkələrdə paytaxtla bölgələr arasında fərq olmur. Biz də buna çalışırıq. Təbii ki, statistik rəqəmlərə diqqət yetirdikdə nə qədər böyük yol keçdiyimizin, hansı uğurlara nail olduğumuzun şahidi oluruq. Son 12 ildə Azərbaycan dünya miqyasında iqtisadi və sosial baxımdan ən sürətlə inkişaf edən ölkədir. 2004-cü ildən bu günə qədər ümumi daxili məhsul 3,4 dəfə, sənaye istehsalı 2,7 dəfə artıb. On iki ildə ölkə iqtisadiyyatına 180 milyard dollar investisiya qoyulub. Valyuta ehtiyatlarımız 50 milyard dollara çatıb. Müqayisə üçün qeyd edək ki, 2004-cü ildə valyuta ehtiyatları 1,8 milyard dollar təşkil edirdi. Son 12 ildə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə ölkə sahibkarlarına iki milyard dollar məbləğində güzəştli kreditlər verilmişdir.

Bu illər ərzində bir milyon 400 min yeni iş yeri yaradılıb. Təkcə cari ilin 9 ayında 87 min yeni iş yeri açılıb ki, onlardan 67 mini daimi iş yeridir. İşsizlik və yoxsulluq 5 faiz səviyyəsindədir. Qeyri-neft sektorunun, sahibkarlığın inkişafı istiqamətində tədbirlər davamlılığı ilə diqqət çəkir. Dövlətimizin başçısı İlham Əliyev bildirir: "Daxili sabitlik, xalqla iqtidar arasındakı birlik, cəmiyyətdə ölkəmizin gələcəyi ilə bağlı nikbin fikirlərin üstünlük təşkil etməsi, əlbəttə ki, dinamik iqtisadi inkişafımıza təkan verir."

Yazının əvvəlində də qeyd etdiyimiz kimi, qarşıya qoyulan əsas hədəf Azərbaycanın yüksək gəlirli ölkəyə çevrilməsi, inkişaf etmiş ölkələr sırasında olması, bu günə qədər 3 dəfədən çox artan ümumi daxili məhsulun daha iki dəfə artırılmasıdır. Neft gəlirlərindən səmərəli istifadə mühüm sosial-iqtisadi layihələrin icrasını şərtləndirir. Hazırda aktivlərinin həcmi 37 milyard dollardan artıq olan Dövlət Neft Fondu ölkənin hərtərəfli inkişafına xidmət edən mühüm sosial-iqtisadi layihələrin həyata keçirilməsini maliyyələşdirir. Dövlət Neft Fondunu şəffaflıq kriteriyaları üzrə nümunəvi qurum kimi dəyərləndirən ölkə Prezidenti daim bu prinsipin bütün sahələrdə qorunmasının vacibliyini bəyan edir. Şəffaflıq dayanıqlı inkişafın əsası kimi dəyərləndirilir. Qeyd edilən müşavirədə Prezident İlham Əliyev hökumətin yeni situasiyada işləyəcəyini bildirib: "Neft gəlirləri azalır. Ona görə də daha çox innovasiyalara üstünlük verilməlidir. Sahibkarlığın inkişafı üçün əlbəttə ki, addımlar atılacaq və maliyyə sabitliyi təmin ediləcək. Mənim buna heç bir şübhəm yoxdur. Bizim maliyyə vəziyyətimiz sabitdir. Kifayət qədər valyuta ehtiyatlarımız var. Biz yenə də düşünülmüş siyasət apararaq valyuta ehtiyatlarımızı ildən-ilə artırırdıq. Bu il də biz Dövlət Neft Fondunun vəsaitini qoruyuruq."

Çıxışlarında maliyyə intizamının artırılmasından bəhs edərkən cənab İlham Əliyev bu fikri də hər zaman önə çəkir ki, büdcə artdıqca məsuliyyət də artmalıdır. Müqayisəli təhlil aparsaq, 2003-cü ildə dövlət büdcəmiz 1,3 milyard dollar idi. Bu gün isə həmin rəqəm 25 milyard dollardan artıqdır. Daim bu məqsəd qarşıya qoyulur ki, qarşıdakı ilin büdcəsi ötən ilin büdcəsindən həm keyfiyyət, həm də kəmiyyət baxımından üstün olmalıdır. Təbii ki, bu inam uğurlu sosial-iqtisadi islahatlara, ölkəmizin malik olduğu iqtisadi imkanlara əsaslanır. Dövlət büdcəsindən bu və ya digər sahələrə ayrılan vəsaitlərdə də artımlar diqqətdən kənarda qalmır. Cənab İlham Əliyev bildirir: "Mən qarşıya belə vəzifə qoymuşam ki, biz çalışmalıyıq, maliyyə rezervlərimiz ildən-ilə artsın. Bu da, əlbəttə ki, həm xarici investorlar üçün əlavə imkanlar yaradır, inamı artırır, eyni zamanda, dünya maliyyə bazarlarından yaxşı şərtlərlə kreditlərin alınması üçün əlavə imkanlar yaradır. Halbuki buna o qədər də böyük ehtiyac yoxdur. Sadəcə olaraq, bu, bizə əlavə inam verir. Mən dəfələrlə demişəm ki, əvvəlki illərdə bizim əsas vəzifəmiz iqtisadi müstəqilliyimizi yaratmaq idi. Bunu da yaratmışıq. Biz iqtisadi cəhətdən tam müstəqilik, heç kimdən asılı deyilik və bu bizə imkan verir ki, siyasi sahədə də, o cümlədən xarici siyasətdə də müstəqil siyasət aparaq. Bizim əsas istinad nöqtəmiz, güc mənbəyimiz iqtisadi müstəqilliyimizdir."

Bir sözlə, Azərbaycanın iqtisadi inkişaf strategiyasını düzgün əsaslar üzərində qurması hər bir problemi həll etməsinə stimul verir. Beynəlxalq aləmdə islahatçı, eyni zamanda təşəbbüsləri gerçəkliyə çevirən ölkə kimi tanınan Azərbaycan "Doing Business-2015" hesabında mövqeyini möhkəmləndirmiş, ən çox islahat aparan 10 ölkə sırasında 8-ci yeri tutmuşdur. Bu il "Fitch Ratings" agentliyi Azərbaycanın sabit reytinqini bir daha təsdiqləyib. Başqa ölkələrin reytinqinə diqqət yetirdikdə aşağı düşdüyünün şahidi oluruq. Dövlətimizin başçısı İlham Əliyev reallıqlar əsasında bu inamı ifadə edir ki, 2016-cı ildə də biz uğurla inkişaf edəcəyik, ölkə qarşısında duran bütün vəzifələri icra edəcəyik: "Sadəcə olaraq, ilin sonuna qədər, xüsusilə, gələn ilin xərcləri ilə, investisiya proqramları ilə, maliyyə vəziyyətimizlə bağlı hökumət daha da ciddi işləməlidir, yeni təkliflər verilməlidir. Ən əsas məsələ ondan ibarətdir ki, gələn ilin büdcəsi balanslaşdırılmış, reallığı əks etdirən və lazımlı olmayan xərclərə yol verməyən bir büdcə olmalıdır."

Uğurlarımız bir daha bu reallığın təsdiqidir ki, bu gün dünyada nadir Azərbaycan inkişaf modeli vardır. Davamlı inkişafı şərtləndirən sabitlik, xalq-iqtidar birliyi gələcəyə xidmət edən inkişaf konsepsiyasının uğurları əsasında daha da möhkəmlənməkdədir.

Təbii ki, uğurlarımıza, Azərbaycanın inkişafı üçün əsas olan sabitliyin daha da möhkəmləndirilməsi istiqamətində atılan addımlara diqqət yetirməyimiz səbəbsiz deyil. Azərbaycanın hər bir uğuruna qısqanclıqla yanaşan, baş verən hadisələri öz maraqları baxımından təhlil edən daxili bədxahlarımızın və onlara xidmət edən mətbu orqanların Nardaran kəndində baş verən hadisələrə ictimai fikrin çaşdırılmasına xidmət edən şərh vermələri diqqətdən yayınmır. Azərbaycanın hər bir bölgəsinin, kəndinin, qəsəbəsinin sosial-iqtisadi inkişafının dövlətin siyasətində əsas yer tutduğu aydındır. Lakin bu gün həmin ünsürlərin Nardaranın bu diqqət və qayğıdan kənarda qaldığını, hətta Bakı və Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramında Nardaranın bir qəsəbə olaraq adının çəkilməməsini bildirmələri bir daha bu gerçəkliyi ortaya qoyur ki, ölkədə sabitliyin pozulması, ölkə əhalisində iqtidara qarşı inamsızlığın yaradılması, xalq-hakimiyyət qarşıdurması bu ünsürlərin fəaliyyətinin əsas tərkib hissəsidir.

İqtisadi tərəqqini şərtləndirən amillərdən bəhs edərkən demokratikləşmə prosesinin sürətlənməsi xüsusi qeyd edilir. Demokratiya sabitliyin və qanunun aliliyinin hökm sürdüyü şəraitdə inkişaf edir. Cəmiyyət qanunlarla idarə olunursa, təbii ki, bu qanunlar Azərbaycanın bütün ərazilərində eyni səviyyədə icra olunmalıdır. Hansısa kənddə, qəsəbədə bunu yasaq etmək və başqa bayraqları qaldırıb onu ölkənin üçrəngli bayrağına bərabər tutmaq və yaxud da ondan yüksəyə ucaltmaq olmaz. Heç bir siyasi qüvvə həmin dindar şəbəkələrin üzərindən dövlətlə savaşını aparmamalıdır. Ölkədə xalq-iqtidar birliyi sarsılmazdır, möhkəmdir. Uğurlu islahatlar, yeni-yeni təşəbbüslərin həyata keçirilməsi, Azərbaycanın yeni hədəflərə doğru irəliləməsi bu birliyi daha da sarsılmaz edir. Bu fikir beynəlxalq səviyyədə də qeyd olunur ki, əhalinin Prezidentə inam və etimadının böyük olduğu ölkədə hansısa çevrilişdən, xalq-hakimiyyət qarşıdurmasından danışmaq qeyri-mümkündur. Azərbaycanın adı daim həmin ölkələr sırasında ön yerdə dayanır. Bir faktı da qeyd edək ki, ABŞ-ın "Gellap İnternational" təşkilatının bu mövzu ətrafında keçirdiyi sorğularda Azərbaycan daim ön yerdə dayanıb. Ən əsası Azərbaycan dünyanın 10 xoşbəxt ölkəsi sırasında qeyd olunur. Bu xoşbəxtliyi şərtləndirən amil kimi, Azərbaycan hakimiyyətinin həyata keçirdiyi siyasətin önündə vətəndaş amilinin dayandığı qeyd edilir. Dövlətimizin başçısı İlham Əliyev çıxışlarında daim bildirir ki, görülən işlərdən o zaman razı ola bilərəm ki, xalq bu işlərdən tam razıdır. Sosial problemlərin həlli daim diqqətdə olan məsələlərdəndir. Bu baxımdan daxili bədxahlarımızın Nardaran hadisələri ilə bağlı ictimai fikri çaşdırmaq cəhdləri əbəsdir.

✍ **Yeganə Əliyeva,**
***"İki sahil"***